BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2014

**UOT:** 94(479.24)+94(73)

# ŞUŞA QƏZA MƏKTƏBİ XIX ƏSRİN ORTALARINDA

**R.R.BAXIŞOVA**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***rena-bakhishova@mail.ru***

*Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra çar hökuməti müstəmləkə əsarəti altına aldığı ərazilərdə özünün siyasi və iqtisadi dayaqlarının möhkəmləndirilmək məqsədilə məktəblər açmaq xəttini genişləndirdi. Beləliklə, 1830-cu ildə Şuşa qəza məktəbinin təsisi ilə Şimali Azərbaycanda Avropa tipli dünyəvi təhsilin əsası qoyuldu.*

*Məqalədə, məktəbin açılması, genişlənməsi və fəaliyyətinin nəticələri, XIX əsrin ortalarında Şimali Azərbaycanda dünyəvi təhsilin inkişafında oynadığı əhəmiyyətli rol, həmçinin çarizmin məktəb siyasəti, bu siyasətin məqsəd və vəzifələri əks olunmuşdur.*

**Açar sözlər:** Şuşa, Cənubi Qafqaz, nizamnamə, məktəb, maarif, şagird, şəriət

XIX əsrin əvvəllərində Qarabağ xanlığının işğalından sonra ərazidə baş verən siyasi və sosial-iqtisadi dəyişikliklər mədəniyyət sahəsində, əsasən də mədəniyyətin başlıca dayaq hissəsi olan maarif sistemində özünü göstərdi.

Çar Rusiyasının məqsədi Cənubi Qafqazda yerli xalqları itaət altına almaq, ruslaşdırma siyasəti yeritmək, xalqın çarizmə qarşı həyəcanlarının qarşısını almaq, onları Rusiyaya yaxınlaşdırmaqla hakimiyyətini möhkəmləndirmək idi. Bu baxımdan işğal edilmiş ərazilərdə hakimiyyət orqanlarında işləmək üçün rus dilini bilən dövlət qulluqçularına duyulan ehtiyac ənənəvi (dini) məktəblərdən fərqli məktəblər açmaq zərurətini gündəmə gətirdi. Tiflis hərbi qubernatoru general-adyutant N.M.Sipyagin Cənubi Qafqazın bir sıra mühüm şəhərlərində rus dilində dünyəvi təhsil verən ibtidai məktəblərin açılmasının vacib olduğunu bildirdi və bir çox çətinliklərə baxmayaraq belə məktəblərin açılması reallaşdı [1, 11].

“1830-cu ilin dekabrın 30-da Nikolay Mixaylovskinin rəhbərliyi ilə Evangeliya cəmiyyəti tərəfindən onlara bir il müddətinə pulsuz verilmiş binada Şuşa qəza məktəbi 19 şagirdlə fəaliyyətə başladı” [7, 9; 6, 65; 1, 12]. İlk günlər birinci siniflə N.Mixaylovski özü məşğul olurdu. Çox keçmədən şagirdlərin sayı artdı və ikinci sinif də açıldı. Buna görə də, Moskvada Lazarev məktəbində təhsil almış və Tiflisdəki erməni məktəbində müəllimlik etmiş Nersues Araratov Cənubi Qafqazın baş hakimi tərəfindən Şuşa qəza məktəbinə birinci

sinif müəllimi vəzifəsinə təyin edildi. N.Mixaylovski isə ikinci siniflə məşğul olmaqla bərabər məktəbin nəzarətçisi vəzifəsini yerinə yetirirdi [5, 4].

Lakin bir müddətdən sonra qəza məktəblərində təhsilin səviyyəsində bir sıra mühüm qüsurlar özünü göstərməyə başladı. Qəza məktəbləri təhsilin səviyyəsi və məzmununa görə Rusiyadakı məhəllə məktəblərinə bərabər olduğundan xan, bəy, zadəgan, məmur və tacir uşaqlarının təhsili üçün kifayət deyildi. Eləcə də təhsil müddətinin qısalığı (29-cu maddə), tədris edilən fənlərin azlığı (32-ci maddə), dərs vəsaitinin çatışmazlığı baxımından 1829-cu il "Cənubi Qafqaz məktəbləri haqqında əsasnamə"si [16, 573] ölkənin məktəb və maarifə olan ehtiyacını ödəmədiyindən qəza məktəblərini üçsinifli məktəblərə çevirmək, tədris fənlərinin sırasını genişləndirmək, həndəsəyə giriş, coğrafiya, tarix, rəsm fənlərini daxil etmək, müəllimlərin sayını artırmaq, yeni məktəblər açmaq və mövcud qəza məktəblərini təkmilləşdirmək üçün 1835-ci il mayın 12-də Cənubi Qafqaz məktəblərinin ikinci nizamnaməsi təsdiq edildi. [6,67-68; 2,97-99, dok.67]. Bu dəfə qəza məktəblərinin məqsədi yuxarı təbəqələr arasında ibtidai savadı yaymaqdan əlavə şagirdləri Tiflis gimnaziyasında təhsillərini davam etməyə hazırlamaqdan ibarət idi. Birinci sinif hazırlıq sinfi idi. II və III siniflərdə şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsəyə giriş, hüsnxətt, rəsm və yerli dil tədris edilirdi [1, 13; 9, 182]. Tədris planında Azərbaycan dilinə həftədə cəmi 4, rus dilinə isə 8 dərs saatı təyin edilmişdi. Tədris fənləri rus dilində keçirilirdi, yerli dillər II və III siniflərdə tədris edilirdi. Azərbaycan dili ruslar üçün də məcburi fənn idi [6,69; 9, 182] ki, bu da çarizmin əraziyə nəzarət edə bilmək siyasətinin bir hissəsi idi. Şuşa qəza məktəbi də yeni nizamnamə ilə işləməyə başladı.

Cənubi Qafqazda Azərbaycan dilinin əhəmiyyətini xüsusi vurğulayan çar məmurları Azərbaycan dilini ayrıca bir fənn kimi bir neçə Qafqaz şəhərlərinin dövlət məktəblərinin tədris planına daxil etmişdi. Hətta qəza məktəblərinə təyin edilmiş müəllimlərdən yerli xalqın dilini bilmək tələb olunurdu. Bu dövrdə məktəb təhsili məktəbin maddi bazasından, ilk növbədə isə məktəb üçün müvafiq binanın olmasından çox asılı idi. Məktəb üçün müvafiq bina tapmaq və ya yeni bina tikmək o qədər də asan deyildi, hökumət də bu işə laqeyd yanaşırdı. 1835-ci ildə mərkəzi hökumət tərəfindən qəza məktəbləri üçün xüsusi məktəb binalarının tikilməsi üçün layihə təsdiq edilsə də, çarizmin Qafqazdakı məmurları dövlət xəzinəsindən bu işə pul ayırmaq istəmir, əhalinin qabaqcıl hissəsinin maarifə olan marağını görüb məktəb binalarını əhalidən toplanan ianələr hesabına tikməyi təklif edirdilər. 1836-cı ilin aprelində Şuşada gümüş pul ilə 2424 rubl ianə toplanmışdı, əlavə 2623 rubl da toplanması nəzərdə tutulurdu [6,97-98].

Maarif sahəsində görülən siyasi məqsədli tədbirlərə baxmayaraq, hökumət yerli əhalidən dövlətin xeyrinə qulluq edənlərin az olmasından narazı idi. Demək olar ki, hökumət yenə də qəza məktəblərindəki təhsilin səviyyəsi baxımından qarşısına qoyduğu məqsədə çata bilmirdi. Digər tərəfdən, hər yeni yerli ali hakim - canişin Cənubi Qafqazda məktəb təhsilini öz istəyinə uyğun qur-

mağa çalışırdı [1, 14]. Çünki XIX əsrin 40-cı illərinə kimi Şimali Azərbaycanda xalq maarifi və məktəblərini idarə edən xüsusi bir orqan yox idi. İşğaldan sonra bu işlə ərazidə hökmranlıq edən çar ordu generalları, sonra isə Cənubi Qafqaz məktəblər direktoru məşğul olurdu. Azərbaycandakı bütün tədris işləri Cənubi Qafqaz məktəblər direktorluğuna tabe idi. O, bütün məsələlərdə baş hakimə, baş hakim isə Rusiya Xalq Maarif Nazirliyinə müraciət edirdi [8, 32].

Məlumdur ki, komendant idarə üsulu çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda siyasi dayaqlarının möhkəmləndirilməsinə cavab vermədiyindən 1840-cı il aprelin 10-da çar hökumətinin Cənubi Qafqazda inzibati islahat haqqındakı qanununa əsasən ölkədə komendant üsul-idarəsi ləğv olundu, ümumrusiya inzibati sistemi təsis edildi və Şuşa qəzası Xəzər vilayətinə daxil edildi [8, 32; 14, 132].

Bu dövrdə Şimali Azərbaycanın qəza məktəblərində həm şagirdlərin ümumi, həm də azərbaycanlı şagirdlərin say dinamikasında artım müşahidə olunurdu. 1837-ci il oktyabrın 26-na olan məlumata əsasən, Şimali Azərbaycan ərazisində mövcud olan 5 - Şuşa, Nuxa, Bakı, Yelizavetpol və Şamaxı qəza məktəblərində oxuyan 342 şagirddən 132 nəfərini azərbaycanlı uşaqlar təşkil edirdi. Azərbaycanlı şagirdlər ən çox Şuşa məktəbində (60 nəfər) idi. 1843-cü ilin məlumatına görə isə, bu məktəblərdə oxuyan 484 şagirddən 143-ü azərbaycanlı idi [6, 77]. 1840-cı ildən 1845-ci ilə qədər təkcə Şuşa qəza məktəbində şagirdlərin sayı 109-dan [6, 75] 127-yə çatdı [13, 145].

İslahatlar xalqın tələbini ödəməyən qəza məktəblərinin məzmununda dəyişikliklər edilməsini labüdləşdirdi. Belə ki, canişin M.S.Vorontsov Cənubi Qafqazı idarə etməyə başlayan kimi (1844) burada məktəblərin yeni nizamnaməsinin hazırlanması zərurətini irəli sürdü [1,14]. 1846-cı ildə geniş səlahiyyətlər verilməsi isə ona Qafqazda bir sıra yenilikləri həyata keçirmək imkanı yaradırdı [14, 133]. Bununla əlaqədar olaraq, qəza məktəblərinin işində və məzmununda bir daha dəyişikliklərin edilməsi vacibliyi ortaya atıldı. Canişin M.S.Voronsovun başçılığı ilə Cənubi Qafqazda ölkənin idarə edilməsi üçün yararlı məmurlar hazırlamaq, Cənubi Qafqaz diyarı üzrə xüsusi tədris dairəsi yaratmaq [11, 12-19], Cənubi Qafqaz diyarını imperiyanın digər hissələri ilə birləşdirmək, mövcud tədris planında rus dilinin, həmçinin yerli dillərin öyrədilməsini gücləndirmək, rus dilini düzgün bilmək, yerli əhalidən olan şagirdlərə bu dildə mükəmməl danışmağı öyrətmək, rusların yerli dilləri, ilk növbədə isə Azərbaycan dilini əsaslı öyrənməsinə nail olmaq və s. bu kimi digər prinsiplər əsasında 1848-ci il dekabrın 18-də Cənubi Qafqaz məktəblərinin yeni əsasnaməsi qəbul edildi [3, 126-127, dok.104]. Yeni əsasnaməyə görə Şuşa qəza məktəbi Şamaxı-Dərbənd məktəblər direksiyasının tabeliyinə verildi [10, 96-97; 16, 97-98].

Nizamnamənin məqsədi aşağı idarələrdə işləmək üçün zadəgan və məmur uşaqlarına müvafiq təhsil vermək, şəhərli silkinə mənsub və digər azad hüquqlu insanların uşaqlarına lazımi biliklər vermək, ali və digər azad silklərdən olanların uşaqlarını gimnaziyaya hazırlamaqdan ibarət idi. Dövlət, kilsə və

mülkədar kəndlilərinin uşaqları qəza məktəblərinə qəbul edilmirdi ki, bu da qəza məktəblərinin silki xarakter daşıdığını daha aydın şəkildə göstərirdi. Qəza məktəblərində yenə də təhsil haqqı yox idi, təhsil müddəti üç sinifdən ibarət olaraq qalırdı. Məktəblərin tədris planına şəriət, rus dili və qrammatikası, yerli dil, hesab, coğrafiyanın ibtidai əsasları, dəftərxana qaydalarına aid qısa məlumat və hüsnxətt daxil idi [1, 14; 17, 98, 106-107]. Əgər ehtiyac olardısa, qəza məktəblərində nəzərdə tutulan fənlərdən əlavə kənd təsərrüfatının və ticarət elmlərinin ibtidai əsasları da tədris edilə bilərdi. Bunun üçün 4-cü sinif açılmalı idi [6, 72].

Cənubi Qafqaz məktəbləri haqqında 1848-ci il əsasnaməsini müəyyən baxımdan geriyə atılmış addım kimi dəyərləndirmək olar. Belə ki, müqayisədə görünür ki, bu əsasnaməyə görə yerli məktəblərin tədris proqramında bəzi (tarix, həndəsədən başlanğıc kimi fənlər) ixtisarlar edilmiş və bu proqrama «dəftərxana qaydaları haqqında qısa anlayış» əlavə edilmişdi.

1848-ci il nizamnaməsi üçün müəyyən edilmiş təcrübə müddəti başa çatdıqdan sonra 1853-cü il oktyabrın 29-da dördillik sınaq müddətinə "Qafqaz təhsil dairəsi və onun tabeliyində olan tədris müəssisələrinin nizamnaməsi" təsdiq edildi. Nizamnamənin əsas məqsədi Rusiyadakı xalq maarifi sistemini Qafqazda da tətbiq etmək idi [6, 78]. İrticanın nisbətən zəifləməsi ilə əlaqədar olaraq əvvəlki əsasnamədə ixtisar edilmiş bir sıra fənlər bu əsasnamədə bərpa olundu və fənlərin sayı şəriət, rus dili, coğrafiya, tarix, riyaziyyat, təbiət tarixi, qanunşünaslıq, yerli dil, hüsnxətt və rəsm olmaqla 9-a çatdı. Hər bir məktəbin illik xərci xəzinədən olub, gümüş pul ilə ildə 10300 rubl idi [12, 50, 89]. Yeni əsasnaməyə görə Qafqaz Tədris Dairəsində inzibati dəyişiklik baş verdi və bunun nəticəsi olaraq Şuşa qəza məktəbi Tiflis məktəblər direksiyasının tabeliyinə verildi [12, 29-30; 18, 498-499].

1860-cı il iyulun 2-də Qafqaz məktəblərinin yeni nizamnaməsi təsdiq edildi ki, bununla tədris müəssisələrinin daxili quruluşuna toxunulmasa da QTD ləğv edildi və bu islahat nəticəsində Şuşa qəza məktəbi Bakı məktəblər direksiyasının tərkibinə daxil edildi [6, 172; 4, 189, dok.114].

Lakin Qafqaz məktəbləri haqqında qəbul edilmiş məktəb nizamnamələrinin heç biri təcrübədə özünü doğrultmadı: məktəb işini bilməyən, məktəblərin onsuz da ağır vəzifələrilə yüklənmiş şəxslərə həvalə edilməsi müsbət nəticə vermədi [15,40]. Həmçinin digər dövlət məktəblərinin meydana gəlməsi ilə əlaqədar olaraq son 10 il ərzində qəza məktəblərindəki şagirdlərin say dinamikasında qeyri-sabitlik müşahidə olunurdu. Doğrudur, 50-60-cı illərdə Şuşa qəza məktəbi ən çox şagirdi olan məktəb kimi fərqlənirdi. Ancaq yuxarıda qeyd etdiyimiz neqativ səbəblər bu məktəbdən də yan keçməmişdi. Məktəbin şagirdlərinin qeyd etdiyimiz dövr ərzindəki say dinamikasına nəzər salmaq kifayətdir. Məktəbdə 1850-ci ildə 110, 1851-ci ildə 131, 1852-ci ildə 171, 1853-cü ildə 191, 1854-cü ildə 180, 1855-ci ildə 246, 1856-cı ildə 175, 1857-ci ildə 210, 1858-ci ildə 210, 1859-cu ildə 185, 1860-cı ildə 185 şagird təhsil almışdır [8, 114]. Azərbaycanlı şagirdlərin sayında da azalma müşahidə olunurdu.

Yuxarıda qeyd etdiyimiz kimi, 1837-ci ildə Şuşa qəza məktəbində şagirdlərin sayı 60 nəfər olduğu halda 1858-ci il yanvarın 1-nə olan məlumata görə, bu say 15 nəfərə düşmüşdü. 1858-ci ilin məlumatında məktəbin şagirdlərinin milli tərkibinin 15 azərbaycanlı, 13 rus, 180 erməni, 2 farsdan ibarət olduğu görünür [8, 113].

Bütün Rusiya qəza məktəblərini əhatələyən şagirdlərin sayının azalması, təhsildəki bəzi qusurlar qəza məktəblərinin yenidən qurulması zərurətini meydana çıxartdı. 1865-1866-cı dərs ilindən etibarən bu islahatlar Şimali Azərbaycan məktəblərinə də sirayət etdi. Belə ki, Cənubi Qafqazda şagirdlərin sayına görə öndə olan Şuşa qəza məktəbi də genişləndirildi, yeni siniflər və şöbələr açıldı [15, 49]. Göstərilən dərs ilində şagirdlərin çoxluğuna görə Şuşa qəza məktəbi bütün Cənubi Qafqaz qəza məktəbləri içərisində irəlidə idi. Burada 240 şagird var idi ki, onların da xeyli hissəsini azərbaycanlılar təşkil edirdi [6, 100].

1867-ci il iyunun 25-də qəbul edilmiş nizamnamə maarifi aşağı təbəqələrdə yaymaq, müəllimlərin pedaqoji fəaliyyətini artırmaq, rus dili dərslərinin sayını artırmaqla bərabər yerli xalqlardan olanlara öz dillərinin tədrisinə icazə verilməsi, qəza məktəblərində arzu edənlər üçün latın və Avropa dillərinin tədrisinə icazə verilməsi və s. kimi müsbət cəhətlərə malik idi. Bu sonuncu məktəb nizamnaməsi ilə Qafqaz Təhsil Dairəsi yenidən bərpa edildi [6, 176-177; 19, 1016-1031].

1867-ci il nizamnaməsinə görə, Cənubi Qafqazda yenidən qurulan 7 qəza məktəbindən Şimali Azərbaycanda yalnız Şuşa qəza məktəbi oldu. 1868-ci ildən etibarən mövcud qəza məktəbləri üç əsas sinifli məktəblərə çevrildi. Şuşa qəza məktəbinin tədris planına fransiz dili daxil edildi ki, bu da onun Bakıya yaxınlığı və Bakıda real gimnaziyanın mövcudluğu ilə əlaqədar idi. Şimali Azərbaycanın qəza məktəblərində latın və Avropa dillərinin tədrisi Cənubi Qafqazın digər qəza məktəbləri ilə müqayisədə daha çox müvəffəqiyyət qazanmışdı. Xüsusilə Şuşada tacir silkindən olanlar digər ölkələrlə ticarət əlaqələri qurmaq üçün fransız dilini öyrənməyə daha çox səy göstərirdilər. Hətta Şuşa qəza məktəbinin 2 və 3-cü sinif şagirdləri fransız dilini qavrama səviyyəsinə görə gimnaziyanın eyni sinfindəki şagirdlərdən geri qalmırdı [6, 181].

XIX əsrin 20-60-cı illərində tətbiq edilən məktəb əsasnamələri təcrübə, sınaq xarakteri daşıyırdı və çarizmin müstəmləkə maraqlarını özündə ehtiva edirdi.

Hökumətin 22 noyabr 1873-cü il qərarı ilə yerli məktəb nizamnamələri ləğv edildi, bütün ölkə məktəblərinə vahid imperiya üzrə nizamnamələr tətbiq edilməyə başladı, Qafqazın xalq maarifi birdəfəlik imperiya daxilindəki məktəb şəbəkələrinin ümumi siyahısına daxil oldu. Əgər indiyə qədər yerli şərait müəyyən qədər, cüzi şəkildə nəzərə alınırdısa, yerli dillərin tədrisinə müəyyən qədər şərait yaradılırdısa, bu qərarla sadalanan məziyyətlər xeyli məhdudlaşdırıldı, ali məktəblərə daxil olanlara verilən üstünlük aradan qaldırıldı, rus dilinin tədrisi daha da gücləndirildi [1, 16].

Mərkəzi hökumətin Cənubi Qafqazda Rusiya şəhər məktəblərinə uyğun məktəblər yaratmaq haqqında 1872-ci il nizamnaməsi mövcud qəza məktəbləri əsasında şəhər məktəbləri yaratmaq fikrini gündəmə gətirəndə də Qafqaz Təhsil Dairəsinin hamisi (popeçiteli) Cənubi Qafqaz qəza məktəbləri içərisində ən çox şagirdi olan Şuşa qəza məktəbini şəhər məktəbinə çevirməyi təklif etdi [6,190]. Cənubi Qafqazda Avropa tipli ilk dünyəvi təhsil ocaqlarından biri, Azərbaycanda isə ilk belə məktəb olan Şuşa qəza məktəbi 1874-cü ildə şəhər məktəbinə çevrildi. Şuşa şəhər məktəbi bütün Cənubi Qafqazda ilk şəhər məktəbi statusunu aldı.

Beləliklə, 1830-cu ildə Şuşa qəza məktəbinin təsisi ilə Şimali Azərbaycanda Avropa tipli dünyəvi təhsilin əsası qoyuldu. Ənənəvi təhsildən Avropa tipli dünyəvi təhsilə keçid maarif sahəsində yenilik və inkişafla bərabər Şuşanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında mühüm rol oynamış, Şuşa əhalisinin maariflənməsi və rus dilinə yiyələnməsində mühüm rola malik olmuşdur. Məktəb Azərbaycanın o dövrdəki inkişafı üçün fəaliyyət göstərən şəxslərin yetişməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

## MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Ağayev Ə.Ə. 150 yaşlı Şuşa məktəbi. Bakı: Maarif, 1983, 64 s.
2. Акты, собранные Кавказской Археографической Комиссией. Т.7, Тифлис: Типография Главного управления Наместника Кавказского, 1878, 994 с.
3. Акты, собранные Кавказской Археографической Комиссией. Т.10, Тифлис: Типография Главного управления Наместника Кавказского, 1885, 982 с.
4. Акты, собранные Кавказской Археографической Комиссией. Т.12, Тифлис: Типография Главного управления Наместника Кавказского, 1904, 1558 с.
5. Əhmədov H.M. XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəb // "Azərbaycan müəllimi" qəz., Bakı, 1967, 6 aprel.
6. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006, 580 s.
7. Əhmədov H.M. XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəb // V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitunun "Elmi əsərləri". XI seriya, 1767-ci il, №3. s. 3-14
8. Əhmədov H.M. Seçilmiş pedaqoji əsərləri. 5 cilddə, I c., Bakı: Elm və ABU nəşriyyatı, 2001, 450 s.
9. Журнал Министерства народного просвещение. часть 6, отдель 1. СПб., Типография Императорской Академии Наук, 1835, 518 с.
10. Журнал Министерства народного просвещение. часть 62, отдель 1. СПб., Типография Императорской Академии Наук, 1849, 968 с.
11. Журнал Министерства народного просвещение. часть 62, официально-учебная прибавления, СПб., Типография Императорской Академии Наук, 1849, 968 с.
12. Журнал Министерства народного просвещение. часть 80, отдель 1. СПб., Типография Императорской Академии Наук, 1853, 680 с.
13. Кавказский календарь на 1946 год. Тифлис, Типография Главного Управления Закавказким краем, 1845, 247 с.
14. Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку: Азернешр, 1966, 218 с.
15. Памятная книжка Кавказского учебного округа на 1880 г. Тифлис, Типография Главного Управления Наместника Кавказского и Михельсона, 1880, 841 с.
16. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 4, 1829 год. СПб., Типография 2 отделении собственной его императорского величества

канцелярии, 1830, 1666 с, закон 3060
17. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т, 23 отделение второе. 1848 год. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1849, 534 с, закон 22838
18. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т, 28 отделение первое. 1853 год. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1854, 705 с, закон 27646
19. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 42, отделение первое. 1867 год. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1871, 1209 с, закон 44748

## ШУШИНСКОЕ УЕЗДНОЕ УЧИЛИЩЕ В СЕРЕДИНЕ XIX ВЕКА

**Р.Р.БАХЫШОВА**

### РЕЗЮМЕ

В настоящей статье на основе достоверных источников рассмотрены открытие, расширение и результаты деятельности вышеназванного училища, которое сыграла значительную роль в развитии светского образования в Северном Азербайджане в середине XIX века.

Автором также рассмотрены такие вопросы, как образовательская политика царизма, основные его цели и задачи, особо подчеркнуты главные результаты деятельности этой школы.

**Ключевые слова:** Шуша, Закавказье, устав, школа, просвещение, ученик, шариат.

## SHUSHA REGIONAL SCHOOL IN THE MIDDLE OF THE XIX CENTURY

**R.R.BAKHISHOVA**

### SUMMARY

Basing on reliable sources, the paper studies the opening, expansion and results of the activity of the afore-mentioned school which had played a significant role in the development of secular education in the South Caucasus in the middle of the XIX century.

The author has also considered such issues as tsarism’s educational policy, its aims and goals, in particular, the main results of the activity of this school.

**Key words:** Shusha, South Caucasus, regulations, school, education, pupil, shariat.